# "Arşın mal alan" zaman karuselində

**Xalq yazıçısı Kamal Abdullanın "Gülçöhrə və Əsgər" pyesi dahi bəstəkarımız Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasında baş verən vaqeənin davamı, bir növ, sequelidir. Hörmətli yazıçımız bu əsərlə bir ilkə imza atıb. "Arşın mal alan"da Gülçöhrə ilə Əsgərin xoşbəxt sonluqla bitən sevgi macərası bu pyesdə bolşeviklərin hakimiyyətə gəlməsindən sonra faciəyə çevrilir. Həyat bu aşiqlərə sərt üzünü göstərir, yeni ictimai quruluş Əsgər bəy kimilərin növrağını pozur.**



Azərbaycan Dövlət Akademik Musiqili Teatrında hazırlanan tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Əsgər Əsgərovdur. Tipik Şərq əhvalatına fərqli yöndən yanaşan rejissor ictimai quruluşun dəyişməsini emosional-mənəvi planda təqdim edir. Məşədi Cabbarın dilindən Rusiyadakı vəziyyət əyan olur, atasının dostu onu hər vəchlə buralardan uzaqlaşıb İrana çəkib aparmaq istəyir. Çünki orada vəziyyət sabitdir, rahat ticarət etmək üçün imkanlar var. Burada isə bolşeviklər bəylərin, tacirlərin kökünü kəsmək qəsdindədir. Bu fonda Əsgər bəyin ailəsi real təhlükə qarşısındadır. Biz səhnədə həm də Xalq Cümhuriyyəti dövrünün mürəkkəb, ziddiyyətli mənzərəsi ilə qarşılaşırıq.



Əsgər bəy obrazını Prezident mükafatçısı Səmədzadə Xasiyev canlandırır, onun ifası son dərəcə təbii və inandırıcıdır. Aktyor Əsgər bəyin daxili həyəcanlarını, iztirablarını özününküləşdirib. Əsərin məna potensialı əsasən bu obrazın üzərinə düşdüyündən aktyordan plastika və geniş imkanlar tələb edir. Rejissor tamaşanın tonunu uğurla müəyyənləşdirib və aktyor ansamblını, kollektivi bir tonda, bir ritmdə oynamağa yönəldib. Obrazların cəlayi-vətən olması Əsgərlə Gülçöhrənin timsalında yüzlərlə həmvətənimizin faciəli taleyinə işıq salır, tamaşaçıya həyəcanlı anlar yaşadır. Əsgərin Sibirə sürgün olunması, Gülçöhrənin illərlə sevgilisinin yolunu gözləməsi tamaşaçını mütəəssir edir. Sevgi fonunda həm realizm, həm də poetik ümumiləşdirmə rejissor tərəfindən uğurlu həllini tapıb.

Əsgərin sürgündəki psixofiziki durumu, tükənmiş halı, keçmişin görüntüləri qarşısında tab gətirə bilməməsi faciə poetikasının əyaniləşməsidir. Burada melodram faciə müstəvisinə keçir və bu keçid rejissor tərəfindən uğurla səhnə həllini tapıb. Dəmir barmaqlıqlar arxasında ümidsiz bir vəziyyətdə fəryad edən Əsgər və onun məğlubiyyəti... Bu məqamda Əsgərin xarakteri şəxsiyyət tipi sərgiləyir. Təbii özünümüdafiə və haqsızlığa qarşı üsyan bu məqamda birləşir. Pyesin əsas mahiyyəti məhz bu anlarda özünü qabarıq büruzə verir. Əsgərin tifağı bu ədalətsiz hökmlə dağılır. Totalitar sistem o qədər bəylərin, günahsız insanların tifağını dağıdıb ki...

Əməkdar artist İqrar Salamovun ifasında Vəli obrazı yeni cizgilərlə yadda qalır. Onun bu ailəyə sədaqəti, bağlılığı aktyor tapıntıları ilə mükəmməl işlənib. Ümumiyyətlə, İqrar Salamov geniş potensiala malik aktyordur və bu tamaşada da Vəlini özünəməxsus formada canlandırır.

Dəyərli bəstəkarımız Cavanşir Quliyevin tamaşaya yazdığı musiqi, həqiqətən, möhtəşəmdir. Onun bəstəsi hadisələrin ruhunu mükəmməl ifadə edir, Əsgərlə Gülçöhrənin hissləri bu musiqi vasitəsilə danışır və tamaşanın təsir gücünü artırır.

Tamaşada Mehriban Zaliyeva, Atilla Məmmədov, Faiq Mirzəyev, Gültac Əlili, Gülnarə Abdullayeva, Elnarə Nağdəliyeva, İbrahim Əlizadə, Elçin İmanov, Elxan İsmayılov, Əli Kərimov, Orxan Hüseynov, Kamil Cəfərov, Nicat Həbibov, xor və balet artistləri iştirak ediblər. Hər şey çox səliqə ilə işlənib. Tamaşanın özünəxas harmoniyası var və bu da bütövlüyə xidmət edir.

"Gülçöhrə və Əsgər" tamaşası quruluşçu rejissor Əsgər Əsgərovun yaradıcılığında peşəkarlıq baxımından yeni yanaşma kimi qəbul edilir.

***Kənan HACI,***
***yazıçı-dramaturq***

Xalq qəzeti .- 2025.- 26 noyabr (№ 250).- S.10.